**UOT 82.09.**

**Sevil MƏMMƏDƏLİYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**

AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı
***sevil1977@mail.ru***

# İNTİHAR ƏBƏDİ VƏ ƏDƏBİ PROBLEM KİMİ

**Açar sözlər**: *intihar, psixi xəstəlik, ruhi sarsıntı, psixoloji hal*
**Key words**: *suicide, mental illness, psychological trauma, psychological state*
**Ключевые слова**: *самоубийство, психическое заболевание, умственный шок, психологическое состояние*

**Giriş**: Bədii ədəbiyyat insanın daxili aləminin açılmasına yönəlmiş sənət aləmidir. Onun vasitəsilə oxucu insanın, dolayısı ilə özünün bütün hallarda olan vəziyyətini izləyə bilər. İstər aşiq olmuş, istər ədalətsizliyə qarşı mübarizə aparan, istər cəmiyyət tərəfindən çıxılmaz dalanda sıxışdırılan, normal və yaxud qeyri-normal obrazın təsviri ilə müəllif öz mesajını, icmarıcını cəmiyyətə çatdırmağa cəhd edir. Bu baxımdan bədii ədəbiyyatda psixoloji, hətta psixiatrik mövzular da təqdim edilir. Nisbətən daha az toxunan, bir qədər ağırlığı ilə müəllif kimi, oxucunu da narahat edən belə mövzularda ruhi cəhətdən normal qarşılanmayan, psixikası zədələnmiş insanların həyatı daha geniş yer alır. Ağlını itirmiş, depressiyaya düşmüş, qatilə çevrilmiş, intihar edən obrazların təsviri, baş verən hadisə və situasiyaların obrazın həyatına təsiri, onların düşdüyü vəziyyətin səbəblərinin açılması, personajın mücadilələri daha çox diqqət çəkir.

**İntihar psixoloji problem kimi.** Bədii ədəbiyyatda rast gəlinən psixoloji problemlərdən biri intihar – suisid hadisəsidir. Belə əsərlərə müəlliflər müxtəlif məqsədlərlə müraciət edə bilərlər. Problemlərdən çıxış yolu tapa bilməyən insanın intihar etməsinin çarə olmaması, bütün problemlərin həlli yollarının mövcudluğuna inam hissinin aşılanması və s. ədəbi funksiya kimi özünü göstərir. Lakin bəzən insan bunları anlasa, probleminin çıxış yolunu görsə belə, buna gücünün çatmayacağını dərk edir. O bilir ki, etməli olduğunu edə bilməyəcək. Bu halda çıxış yolunun mütləq olduğunu aşılamaq deyil, onu gücünün hər şeyə yetə biləcəyinə inandırmaq lazımdır. Qeyd edək ki, bəzən deyilən və məsləhət görülənlə edilən və ya ediləcəklər arasında o qədər uçurum olur ki, çarəsizlik hər tərəfi sarmış kimi görünür. Bu halda intihar, əsasən, qurtuluş yolu kimi düşünülür. Təsadüfi deyil ki, rus filosofu Nikolay Berdyayev də intiharın psixologiyasını ümidsizlik psixologiyası ilə eyniləşdirir. Alimin fikrincə, intihar edən insan yalnız bütün ümidlərini deyil, eyni zamanda inamını, o cümlədən Tanrıya inamını da itirir. XIX əsrdə Nitsşenin insan iztirablarının ömrünü uzadan xəstəlik adlandırdığı ümidi N.Berdyayev insanın ən çətin vəziyyətə düşəndə belə yaşama hissini artıran vasitə hesab edir [13].

Bu baxımdan A.Məsudun “Qatar altına atılan qadın” [1] əsəri diqqəti cəlb edir. Əsərində bütün ümidləri puç olmuş bir aktrisanın intihar qərarı ilə onun icrasına qədər olan zaman kəsiyindəki vəziyyəti təsvir edilir. Ruhi cəhətdən

sarsılmış bu qadın qərarını verib: bu cansıxıcı cəmiyyətdən canını qurtarmaq. Bunun icrasının isə iki yolu var: ya qatara minib buranı tərk eləmək, ya da qatarın altına atılmaqla bu dünyanı tərk eləmək. Nəhayətdə qadın ikinci yolu seçir. Onu əhatə edən cəmiyyət isə bu iki yol arasında seçim etməkdə çətinlik çəkən, tərəddüd edən birinə qərar verməkdə "yardımçı" olur.

Diskurs baxımından intihar müxtəlif elm sahələrinin – psixologiya, sosiologiya, fəlsəfənin tədqiqat obyektidir. Hər bir elm sahəsində də bu mövzuya problemin yaranma səbəbinə görə yanaşılır. Deməli, intihar hadisəsini sosioloqlar sosial və iqtisadi problem, filosof və yazarlar ruhi vəziyyət, psixoloqlar isə psixi xəstəlik kimi qəbul və izah edirlər.

Psixiatrik ədəbiyyatda qeyd edilir ki, "...psixi xəstəliklərin bir çoxu patoloji prosesin mənbəyində – beyin toxumasında nəzərə çarpan morfoloji dəyişiklik baş vermədən cərəyan edir. Elə buna görə də psixi xəstəlikləri funksional və orqanik xəstəliklər qrupuna bölmək qəbul olunmuşdur. Funksional psixi xəstəliklərə misal olaraq nevrozlar, reaktiv psixozlar, MDP (maniakal depressiv psixoz – S.N.), psixopatiyalar və s., orqanik psixozlara isə qocalıq, ağıl zəifliyi, PİK və Altsheymer xəstəliyini, beyin sifilisi, ensefalitlər və s. göstərmək olar. Bəzi psixi xəstəliklərin, o cümlədən, şizofreniyanın orqanik xəstəliklərə aid edilməsi mübahisəlidir. Morfoloji tədqiqat üsullarının təkmilləşdirilməsi və yüksək həssaslığa malik yeni aparatların kəşfi nəticəsində (elektron mikroskopu, maqnit nüvə rezonansı, kompüter tomoqrafiyası və s.) əvvəllər funksional hesab olunan bəzi xəstəliklərin əsasında çox zəif nəzərə çarpan patohistoloji dəyişiklikləri aşkar etmək imkanı vermişdir" [7, s.124].

Bədii ədəbiyyata müraciət etsək, S.Vurgunun "Komsomol poeması"nı nümunə gətirmək olar. Burada Gəray bəyin intiharınıonun psixoloji sarsıntı keçirməsi ilə izah edə bilərik. Etibar etmədiyi üçün Cəlalı xəstə yatağında, yuxuda ikən namərdcəsinə öldürən Gəray bəy qızının ölümündə özünü suçlayır. Sevgilisinin atası tərəfindən öldürüldüyünü eşidən Humay Cəlalı atasının yanına göndərməkdə səhv etdiyini anlayır. Bu dərd onu pərişan edərək yatağa salır və ölümünə səbəb olur. Humayın ölümü, xüsusən də bunda özünün günahkar olması Gəray bəyin də psixoloji halına təsir edir. Gəray bəy sevimli qızının ölümündə dolayısı ilə özünü qatil hesab edir. Humayın xəyalı atasını rahat buraxmır. Komsomollara qarşı mübarizədən çəkinməyən Gəray bəy qızının xəyalına təslim olur. Onu mühasirəyə alan düşmənlərinə müqavimət göstərmir və Kürün sularında qərq olan Humayın xəyalının arxasınca gedərək suda batır.

Burada biz personajın psixikasındakı dəyişikliyi aydın görə bilirik. Bu baxımdan intihara psixoloji xəstəliyin təzahürü, psixi cəhətdən insandakı dəyişikliklərin nəticəsi kimi yanaşma iddiaları özünü doğruldur. Necə ki, fransız psixiatrı Jan Etiyen Dominik Eskirol 1838-ci ildə yazdığı "Ruhi xəstəliklər barədə" kitabının "İntihar haqqında" bölməsində intiharı ruhi xəstəlik hesab edirdi [15].

**İntihar hadisəsi psixiatrik halın nəticəsi kimi.** İntiharı sosial və iqtisadi problemlərlə birbaşa əlaqələndirən fransız sosioloqu Emil Durkhaym iqtisadi tənəzzül, müharibələr və digər ağır şərait zamanı intihar hallarının artdığını statistik faktlarla sübut edərək bildirirdi ki, intihar sosial normaların dağıldığı(anomiya) və insanlar istiqaməti itirdiyi, çaşqınlıq hissini yaşadıqları halda baş verir. Alimin intihar haqqında fikirləri ilə tanış olduqda onun iki istiqamətdən qiymətləndirildiyinin şahidi oluruq: sosial və psixi. Birinci istiqamət sosial

tərəfi əhatə edərək eqoistik (şəxsiyyətin sosial qrupa inteqrasiya edə bilməməsi), altruistik (şəxsiyyətin sosial qrupa tam inteqrasiya etməsi), anomik (şəxsiyyətin sosial düzəninin dəyişməsini çətin qəbul etməsi) qruplara bölünür. İkinci istiqamət isə psixi xəstələrin intiharıdır və onun da bir neçə forması qeyd edilir: Maniakal intihar – hallüsinasiyalardan (müəmmalı və ya "ilahi" göstərişin intihara sövq edilməsi) əziyyət çəkən xəstənin; melanxoliklərin intiharı – ruhi vəziyyətin aşağı olması, ətraf mühitin və ya hadisələrin düzgün dəyərləndirilmə qabiliyyətinin olmaması; pis ideyalara mübtəla olmaq – belə xəstələr səbəbini anlamasalar belə, intihara meyilli olurlar; mexaniki və ya qeyri-iradi intihar – uça biləcəyini güman etmə, altruistik intihar – özünügünahlandırma, özünücəzalandırma və s.

Baxmayaraq ki, suisid yalnız psixi xəstəlik nəticəsində meydana çıxmır, bununla belə, Ziqmund Freyd intiharı şəxsiyyətin psixoseksual inkişafının pozulmasının nəticəsi hesab edirdi. Məşhur rus psixiatrları Q.Qordon, S.Korsakov, İ.Sikorski, N.Bajenov, S.Suxanov və digərləri isə haqlı olaraq göstərirlər ki, yalnız psixi cəhətdən xəstə olanlar deyil, hətta normal insanlar da intihar edə bilərlər [12]. Lakin intihara meyil depressiya halına düşmüş insanlarda daha güclü olur. Depressiya isə ciddi görünməsə də, hər halda psixi xəstəlik hesab edilir.

Razılaşmaq olar ki, bu halın xəstəlik kimi özünü büruzə verdiyi insanlar da vardır. Hətta bir sıra psixi xəstəliklərin gedişində, yəni patogenezində intihar meylinin güclənməsi və özünü büruzə verməsi də xəstəliyin əlamətlərindən biri kimi təqdim edilir. Uçacağını, havada yeriyə biləcəyini və s. zənn edən xəstə də davranışlarının nəticəsində həyatını itirir. Bəzən isə psixi xəstə remissiya, yəni tutmaların buraxdığı – müvəqqəti sağalma zamanı intihar edir, çünki xəstəliyin əlamətlərini özünə təhqir hesab edir. Psixiatrik ədəbiyyatda səbəbindən asılı olmayaraq intihar, ümumiyyətlə, normal hal sayılmır, onun elmi-tibbi, fizioloji mahiyyəti və səbəbləri araşdırılır. Bu baxımdan mərkəzi sinir sistemində impulsları ötürən metobolitlərin rolu da öyrənilir. İntihar etmiş insanlar üzərində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, onlarda onurğa beyin mayesində defomin metaboliti olan homovanil turşusunun miqdarı normal insanlara nisbətən 50% aşağı enmiş, "onurğa beyni maddəsində serotoninin 5-hidroksi-indolaset turşusu metabolitinin azaldığı müəyyən olunmuşdur [8, s.268]. Alimlər serotonin maddəsini "xoşbəxtlik hormonu" adlandırırlar. Qeyd edilir [2] ki, bu hormon insanda xoşbəxtlik hissini artırır və insanın depressiyaya düşməsinin qarşısını alır. Düşünmək olar ki, suisidin yaranma səbəbinin, yəni etiologiyasının öyrənilməsinə baxmayaraq, bu problemin aradan qaldırılmasına nail olunmamışdırsa, deməli, bu nəticələr hələlik bir ehtimal olaraq qalmaqdadır. Belə ki, nümayişkaranə şəkildə intihara cəhd etmə və bunun uğursuz alınması (bilərəkdən kənar müdaxilə şəraiti yaradaraq xilas olma), eyni zamanda bunun dəfələrlə təkrarlanması kimi artıq ruhi deyil, psixiatrik hallara da rast gəlinir. Bu cür xəstələr üzərində tədqiqat aparıb müəyyən nəticələr əldə edilərsə, artıq bu nəzəriyyə özünü doğrultmuş olardı.

İntiharın müxtəlif səbəbləri ola bilər. Məhz bu səbəblərə əsasən suisid müxtəlif sahələrin tədqiqat obyektinə çevrilmişdir. Bunlar arasına ictimai və sosial problemlər – maddi çətinlik, ailədaxili münaqişələr və narazılıqlar, intihara sövqetmə (İ.Şıxlının "Dəli Kür" əsərində Cahandar ağa bacısı Şahnigarı intihara sövq edir), özünümüdafiə məqsədi, siyasi təzyiqlər və s., sağalmaz və ağır

xəstəlikdən əziyyət çəkmədən qurtuluş, şəxsi həyatdakı uğursuzluq, psixi amillər – spirtli içki və narkotikdən istifadə, ruhi sarsıntı halları, psixi pozuntunun nəticəsi olan depressiya, şizofreniya, şəxsiyyət pozuntusu, affekt – yüksək həyəcanlılıq da daxil edilə bilər.

Gete intiharı sağalmaz xəstəliklə eyniləşdirir. Bununla belə, müəllif onu psixi xəstəlik saymır. O, bu barədə fikirlərini "Gənc Verterin iztirabları" əsərində qəhrəmanın dili ilə ifadə edir. Onun fikrincə, intihar ruhi vəziyyətin sağalmazlığının nəticəsi kimi ortaya çıxır. İnsanın fiziki xəstəliyinin (burada əlacı olmayan xəstəliklər nəzərdə tutulur) onun ölümünü gerçəkləşdirdiyi qəbul edilirsə, intihar da insan ruhunun (burada psixiatrik xəstəliklər deyil, insanın mənəvi cəhətdən sarsılması və çıxılmazlıq nəzərdə tutulur) xəstəliyi və məhvi kimi dəyərləndirilməlidir [6, s.80-81]. Onun qəhrəmanı Verter də ruhunun sağalacağına ümid etmədiyindən çıxış yolunu intiharda görmüşdü.

**Sosial proseslərin intihar hadisəsinə təsiri.** F.M.Dostoyevski "Yazıçının gündəliyi" publisistik oçerkinə saldığı "İki intihar" əsərində səbəblərini anlamağa çalışdığı, lakin bəraət verə bilmədiyi iki intihar hadisəsini müqayisə edir. Birinci intihara səbəb imkanlı ailənin ehtiyacdan bixəbər övladının həyatının "bir xətt" üzrə davam etməsindən usanması hesab edilir. İkinci halda isə binanın dördüncü mərtəbəsindən özünü atan bir qadının intihar etməsinə səbəb onun həyatın ağır zərbələrinə tab gətirə bilməməsi, yaşamaq, yemək üçün iş tapa bilməməsidir [14]. Burada müəllif intihara sosial bir məsələ kimi yanaşır.

N.Berdyayev qeyd edir ki, intihar edən insanı anlamaq üçün onun ruhi vəziyyətini dərk etmək lazımdır [13]. Bu, fəlsəfi, eyni zamanda psixoloji yanaşma olsa da, ədəbiyyatın da problemə yanaşma tərzi ilə üst-üstə düşür, çünki ədəbiyyatın süjet xətti elə insanın əməllərinin, hərəkətlərinin mahiyyətinin açılması üzərində qurulur. Belə ki, ədəbi əsərlərdə müxtəlif səbəblərdən icra edilən intihar halları təsvir edilir; ümidsizlik, həyatın mənasızlığı, təsadüfdən meydana gələn hadisə, psixi sarsıntılar, affekt halında intihar və s. Onu da qeyd edək ki, bütün hallarda, səbəbindən asılı olmayaraq, baş verən intiharın ədəbiyyatda təsviri həm oxucunu bu addımdan yayındıra, həm də onu buna sövq edə bilər. Elçin Qaliboğlu qeyd edir ki, "ədəbiyyat adamları intihar mövzusunu bədiyyatın tələbləri baxımından təsvir edir, müəyyən məqamlarda onu hətta vəsf etmiş də olurlar" [4]. Xalq yazıçısı Elçin də ədəbiyyatın təsir vasitəsi kimi gücünü yüksək qiymətləndirərək bildirir ki, "Gənc Verterin iztirabları"ndan sonra az qala bütün Avropanı intihar dalğası bürümüşdü..." [5]

İntihar hadisəsinin təsvir edildiyi bədii əsərlərin əksəriyyətinin təhlili onu göstərir ki, intihar insanın, daha dəqiq desək, obrazın affekt halında icra edilir. Belə əsərlərə antik dövr ədəbiyyatından müasir dövrümüzə qədər rast gəlmək mümkündür. Nümunə üçün Antik Yunan ədəbiyyatından Sofoklun "Tiran Edip" və Azərbaycan ədəbiyyatından T.Kazımovun "Qisas" əsərlərinə müraciət edə bilərik. Hər iki əsərdə baş verən hadisələrdən sarsılan, özlərinə bəraət verə bilməyən obrazların daxili aləminin təlatümləri nəticəsində, eyni zamanda düşünülərək həyata keçirilmiş intiharın təsvirinə ras gəlirik. Janr və süjet baxımından fərqlənən bu əsərlərdə səsləşən hadisələr, final onları bir-birinə yaxınlaşdırır və müqayisə üçün zəmin yaradır. "Tiran Edip" əsərində Edipin anası intihar edir. Burada Fiv şəhərinin kraliçası əri öldürüldükdən sonra başqası ilə ailə quraraq ondan dörd uşaq dünyaya gətirir. Tanrıların onun xalqına qəzəblənməsi və cəza verməsinin səbəblərini araşdırdıqda isə məlum

olur ki, kraliçanın hazırkı əri Edip əvvəlki ərindən dünyaya gələn, lakin atılaraq ölümə məhkum edilən oğludur. Tanrıların qəzəbinə səbəb olan bu hadisə elə psixoloji halın təzahürü olan intiharın səbəbi kimi də təqdim edilir. Öz doğma oğluna ərə getməsi, ondan uşaq dünyaya gətirməsi, oğlunun öz atasının qatili olması kimi situasiyanın ağırlığına tab gətirə bilməyən kraliça intiharı ən doğru yol hesab edir. Edip isə intiharı yüngül cəza hesab edərək özünü kor edir [11, 163]. "Qisas"da isə Xanların ayrı böyüyən və bir-birindən xəbərsiz olan oğlu ilə qızının övladı dünyaya gəlir. Bunu qəbul edə bilməyən Xanlar kişi ondan qisas almaq məqsədilə bu birliyi təşkil edən insanların, sonra isə oğlunun cəzasını verərək onları qətlə yetirir. Bu işdə özünün günahının heç də az olmadığını düşünən personaj sonda qızının gözləri qarşısında öz dəhşətli ölüm səhnəsini qurur və onu həyata keçirir [9].

Həkim-psixiatr Nihad Məmmədov intihara səbəb olan affekt halını psixiatrik xəstəlik hesab edir və iddia edir ki, bu hal insanda bir ay öncədən əsəbilik, təcavüzkarlıq, yuxu və iştaha pozğunluğu kimi əlamətlərlə özünü büruzə verir və zamanında həkimə müraciət etməklə, bir aylıq müalicə kursu qəbul etməklə sağalmaq mümkündür. "Affekt ən gec bir ay öncədən özünü büruzə edir. Adam susqunlaşır, qapalı olur, özünə baxmır, baxışları donuqlaşır, ara-sıra ölüm və vida haqqında sözlər deyir. Ümidsiz olmağa başlayır. Gələcəyə ümidi olmayan xəstə haldan düşmüş kimi görünür. Amma maraqlısı budur ki, affekt keçirəcək insan affekt halından 1 saat öncə bunun tam tərsini nümayiş etdirir. Sakit, donuq baxışlı insanın əvəzinə canlı, şən insan görünür" [3]. Bütün hallada suisid bir sıra elmin tədqiqat obyekti kimi aktuallığını daim saxlasa da, problemin həlli yolları naməlum olaraq qalır. Baxmayaraq ki, psixoloq və psixiatrlar bu problemin həllinin müalicə yolu ilə aradan qaldırılmasının mümkünlüyünü iddia edirlər. Lakin mürəkkəb daxili aləmə malik insanın gizli dünyasına nüfuz etmək, orada qətiyyətli dəyişikliklərə nail olmaq mümkün deyildir.

**İntihar hadisəsinə təriqətlərin təsiri.** Burada həm də dini amillərin, təriqətlərin rolu öyrənilir. Əgər din intiharı günah, yolverilməz hesab edirsə, hazırda müxtəlif təriqətlər çox zaman dini pərdə altında xüsusi düşünülmüş proqramlar və təsir vasitələrindən istifadə edərək insanları intihara sürükləyir. Bir zamanlar dövlətlərin, xüsusən Yaponiyanın ərazilərini qorumaq məqsədilə istifadə etdiyi "kamikadze"lər müasir dövrümüzdə ayrı-ayrı qrupların ambisiyaları uğrunda qurban kimi yetişdirilir.

Bədii ədəbiyyatda kamikadzelərlə bağlı mövzuya rast gəlmək mümkündür. Yapon dünyagörüşündə intihar, o cümlədən kamikadzelik mərdlik, qorxmazlıq təcəssümü ilə ifadə edilən fəlsəfi mahiyyətə malikdir. Yəni intihar günah deyil, hətta bir kişilik, ləyaqət rəmzi hesab edilir.

Kamikadzeləri ölüm hökmü kəsilmiş insanlarla müqayisə etmək olar. Hər ikisi ölməlidir, lakin birinin icraçısı özüdür, birininki isə başqası. Y.Səmədoğlunun "Simurq quşu" hekayəsində ölüm hökmü kəsilən məhbusların psixoloji durumundan bəhs açılıb [10, s.231]. Hekayədə ölüm hökmü kəsilən məhbusların kamerasında yaşanan bir neçə saat təsvir edilir. Üç məhbusdan biri ona kəsilən hökmün icrasını sakitcə gözləyir. İkincisi isə tamamilə aqressiv olmuşdur. O, kamerada kimsəyə rahatlıq vermir, dayanmadan qışqırıb ağlayır, ölmək istəmədiyini deyir. Lakin kamikadzelərin vəziyyətini ölüm hökmünün icrasını gözləyən bu iki insanınkı ilə müqayisə etmək düzgün olmasa da, hər halda yaxın duyğuların yaşandığını anlamaq çətin deyil.

**Nəticə.** Bədii əsərlərin də mövzusuna çevrilən intihar probleminin həlli yalnız ədəbiyyatın deyil, eyni zamanda fəlsəfə və sosiologiyanın, pedaqogikanın, psixiatriya və psixologiyanın da üzərinə düşür. Çünki bu, sırf ideoloji problem kimi nəzərə alınmalıdır.

Suisid haqqında ədəbiyyatların araşdırılması bu qənaəti yaradır ki, intihar hadisəsini nə tamamilə fəlsəfi düşüncə tərzi hesab etmək, nə də tamamilə psixiatrik xəstəlik adlandırmaq olur. Çünki bu proses düşünülərək icra edilir. Deyildiyi kimi, insanlar düşünməyi öyrəndikdən sonra intiharı fikirləşiblər. Deməli, kökündə müxtəlif – sosial, siyasi, dini və s. mahiyyətin dayanmasından asılı olmayaraq, intiharı psixoloji-fəlsəfi hal hesab etmək daha düzgün olardı.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Afaq Məsud. Qatar altına atılan qadın. "Azərbaycan" jurnalı. 2012, №-6. http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?s=1
2. az.wikipedia.org/wiki/İntihar
3. Bəzən cinayətlər şüursuz vəziyyətdə baş verir. Müsahibə. 15:47, 13 noyabr 2012, http://news.day.az/society/366163.html
4. Elçin Qaliboğlu. Gündəlik həyatın çətinlikləri – Həyatın qiyməti artdıqca onu heç kəs itirmək istəmir. "Xalq cəbhəsi" qəzeti, 2009.
5. Ədəbiyyat söhbəti. Yaşarın Xalq yazıçısı Elçin ilə müsahibəsi. 23 avqust 2011. www.Kitabxana.net
6. Höte İ.V. Gənc Verterin iztirabları. Bakı, "Yazıçı", 1983, 204 s.
7. İsmayılov N.V. Psixiatriya. Bakı, Maarif, 1992. 370 s.
8. İsmayılov N.V., İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. Bakı, "Maarif", 2008. 416 s.
9. Kazımov T. Qisas. Povestlər. Bakı, "Yazıçı", 1990, 272 s.
10. Səmədoğlu Yusif. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 320 s
11. Sultanlı Əli. Antik ədədbiyyat tarixi. Bakı, ADU, 1958, 494 s.
12. Банщикова Е.Г. Философские и методологические основы психопатологического анализа самоубийства. www.rusmedserv.com/psychsex/su.shtml
13. Бердяев Николай. О самоубийстве. М.: МГУ, 1992, http://www.gumer.info/bogoslov_Buks/Philos/Berd/Suid.php 22.02.14 13:58.
14. Достоевский Ф.М. Два самоубийства. Архивировано из первоисточника. 24 мая 2012.
15. Эскироль, его деятельность. http://www.psychiatry.ru/lib/53/book/9/chapter/40

***Sevil Mammadaliyeva***

**Suicide as eternal and lıterary problem**
***Summary***

On the basis of literary samples, the case of suicide was highlighted in the article through psychological, sociological, religious, and philosophical aspects.It was noted that suicide appears in the psychiatric literature as a mental illness; by sociologists, as a manifestation of social and economic problems; in fiction and philosophical literature, however, as a result of psychic human turmoil. Nevertheless, in the article, this case, unfolding in human life was basically assessed as a psychological state. It was noted that the decision about the suicide of the characters described in fiction literature, and the execution of this decision does not occur suddenly, the event description makes it clear that suicide is inevitable.This insight appears on the background of mental changes of character. Along with this, it is concluded that suicide, regardless of social, political, religious and other factors, it would be more correct to consider a psychological and philosophical decision.

***Севиль Мамедалиева***

**Суицид как вечная и литературная проблема**
***Р е з ю м е***

На основе литературных образцов случай самоубийства в статье был освещён через психологические, социологические, религиозные и философские аспекты. Было отмечено, что суицид представляется в психиатрической литературе, как психическое заболевание; социологами, как проявление социальных и экономических проблем; в художественной и философской литературе же как результат психических потрясений человека. Тем не менее, в статье этот случай, происходящий в человеческой жизни, в основном был оценён, как психологическое состояние. Было отмечено, что решение о самоубийстве персонажей, описываемых в художественной литературе, и исполнение этого решения не происходит внезапно, по описанию событий становится понятно, что самоубийство неизбежно. Это понимание же представляется на фоне психических изменений образа. Наряду с этим, делается вывод, что самоубийство, вне зависимости от социальных, политических, религиозных и других факторов, было бы правильнее считать психолого-философским решением.